# Azərbaycanlı rektor beynəlxalq tədbirdə

## Aygün Attar "İctimai Gender və Qlobal Media İttifaqı" konfransında Türkiyəni təmsil edir

**Türkiyənin Girəsun Universitetinin rektoru Prof. Dr. Aygün Attar beynəlxalq konfransda iştirak etmək üçün Cenevrəyə yola düşüb. O, hər zaman olduğu kimi bu əhəmiyyətli səfərdə də öz ölkəsinin yanında olduğunu bildirib. Aygün xanım Azərbaycanda baş verən faciəni bu misralarla dilə gətirib:**

"İçimdə Xəzərdən əsən küləyin qızdırmalı yanğını, üzümdə "Günəşli"ni qaraldan ağrının neft rəngində olan matəmi, çiyinlərimdə yox olanların dəhşətli ağırlığı ilə BMT-nin Cenevrədə keçirilən konfransında iştirak eləmək üçün İsveçrəyə yola düşürəm. Ruhumun ağrısı yoluma yoldaşlıq eləyir... Can Azərbaycan.. Canım Azərbaycan... Fəryadımı səmanın ənginliklərinə pıçıldayacağam..."

Girəsun Universitetinin rektoru Prof. Dr. Aygün Attar və Girəsun Universitetinin Xarici Əlaqələr Koordinatoru Dos. Dr. Şirin Dilli, YUNESKO-nun 7-8 dekabr 2015-ci il tarixlərində Birləşmiş Millətlər Təşkilatının Cenevrədə olan Millətlər Sarayında (Palais des Nations) keçirilən "İctimai Gender və Qlobal Media İttifaqı" konfransında Türkiyəni təmsil edir.




Tədbirdə yüzə yaxın dövlətin, Birləşmiş Millətlər Təşkilatı və hökumətin nümayəndələri, özəl sektor təmsilçiləri, OECD, UN-Women, UNDP, ISESCO, Avropa Şurası, Ərəb Liqası kimi beynəlxalq təşkilatların nümayəndələri iştirak edir.

Tədbirin ilk günü "CNN İnternational"ın beynəlxalq xəbər şefi və YUNESKO-nun xoşməramlı səfiri Kristan Amanpurun açılış nitqi ilə başlayıb. Natiq öz çıxışında XXI əsrdə hələ də çətin şəraitdə yaşayan qadın və qız uşaqlarının varlığından söz açıb, BMT və YUNESKO kimi beynəlxalq təşkilatlarda təmsil olunan bütün ölkələrin təhsil və mədəniyyət istiqamətində birgə fəaliyyətlərində bu məsələnin əhəmiyyətindən bəhs edib.

Natiqlər xüsusilə mediada öz sözünü demiş, çeşidli uğurlara imza atmış qadın jurnalistlərə üstünlük verilməsinin vacibliyini, onların qadınlar üçün ilham mənbəyi olacağını vurğulayıblar: "İnformasiya çağında mediada özlərinə inam hissi güclü olan, karyera və ailə arasında seçim eləmək məcburiyyətində qalmayan, bütün bunları eyni vaxtda uğurla həyata keçirən xanımlar öz həmcinslərinə ilham mənbəyi ola bilərlər".

Konfransda həmçinin inkişaf etmiş ölkələrdəki diplomlu qadın sayına dair rəqəmlər açıqlanıb. Bildirilib ki, dünyada düşüncə fərqi yaradılmalı, cəmiyyətdə gender bərabərliyinə üstünlük verilməli, bütün bunlar təhsil müəssisələri və media vasitəsi ilə təbliğ olunmalıdır.

Konfrans 9-10 dekabr tarixlərində ilk dəfə təşkil ediləcək YUNESCO yanında Media və Gender Qlobal İttifaqının ümumi iclası ilə davam edəcək.